## Vergi Məcəlləsinə 2016-cı ildən qüvvəyə minmiş dəyişikliklər barədə

# Sadələşdirilmiş vergiyə edilən dəyişikliklər

## (ticarət və ictimai iaşə fəaliyyəti üzrə)

Vergi Məcəlləsinin 155.1, 218 və 220-ci maddələrinə edilmiş dəyişikliklərə əsasən;

✦ƏDV-nin məqsədləri üçün ərizə vermə öhdəliyini yaradan vergi tutulan əməliyyatların həcmi 120.000 manatdan 200.000 manatadək artırılmış,

✦ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə satış dövriyyəsi 200.000 manatdan artıq olduğu halda ticarət fəaliyyəti üzrə 6 faiz, ictimai iaşə fəaliyyəti üzrə 8 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququ verilmişdir.

Sadələşdirilmiş vergini ödəyən ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər ƏDV-nin, mənfəət və əmlak vergisinin, fiziki şəxslər isə ƏDV-nin və gəlir vergisinin ödənilməsindən azad edilirlər.

Ticarət və ictimai iaşə fəaliyyəti üzrə dövriyyəsi 200.000 manatdan artıq olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etməyə də bilərlər. Vergi Məcəlləsi onlara bu seçim hüququnu verir. Bu halda həmin şəxslər Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada ƏDV ödəyicisi kimi qeydiyyata alınaraq ƏDV, ilin yekunlarına əsasən mənfəət (gəlir) və əmlak vergilərini (hüquqi şəxslər üçün) dövlət büdcəsinə ödəməlidirlər.

*TİCARƏT FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLAN ŞƏXSLƏR - 6 faiz*
*İCTİMAİ İAŞƏ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLAN ŞƏXSLƏR - 8 faiz*




---

*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Qəbələ Rayon Polis Şöbəsində vakant olan orta rəis heyəti vəzifələrində xidmətə qəbulla əlaqədar müsabiqə*

## elan edir

Musabiqə aşağıdakı yerlər üzrə test imtahanlarından və müsahibədən ibarətdir:

1.Cinayət-axtarış üzrə əməliyyat müvəkkili vəzifəsinə (hüqüqşünaslar üçün).

2. Polis sahə inspektoru vəzifəsinə (hüqüqşünaslar üçün).

Müsabiqədə dövlət ali təhsil müəssisələrində hqüqşünas ixtisası almış, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, yaşı 30-dan yuxarı olmayan, boyu 165 sm-dən yuxarı olan və «Azərbaycan Respublikasının daxili işlər orqşanlarında xidmətkeçmə haqqında əsasnamə»də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları olan, kişilər iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin elan edilmiş vakant vəzifələrə təyinatından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcək.

Daxili işlər orqanlarında xidmətə qəbul olmaq istəyən şəxslər yaşadıqları ərazi prolis orqanına müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər.

**—şəxsiyyət vəsiqəsi;**
**—ali təhsil haqqında diplom;**
**—hərbi bilet;**
**—əmək kitabçası (olanlar üçün).**

Təqdim olunmuş sənədlər əsasında namizədin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak etmək üçün sənədlər 2016-cı il yanvar ayının 21-dən fevral ayının 21-dək hər gün (şənbə və bazar günlərindən başqa) saat 10-dan 18-dək Qəbələ Rayon Polis Şöbəsində qəbul olunur.

**Əlaqə tel:** (024) 205 18 28.
(024) 205 18 22.
**İnternet ünvanı:** DİN-www.mia.qov.az.

# Müdrik deyimlər

✦Şöhrətpərəstlik insana qalib gəlcə, onu öz nəfsinin qulu edər

**A. Bakıxanov.**

✦Dünən mütləq doğru deyə təkid etdiyiniz nə qədər çox şeyi bu gün nağıl deyə anladırsınız.

**Montaiqne.**

✦Kitabını oxuyan uşaq, aşını bişirən qadın, tarlasını əkən kəndçi, dəzgahın arxasındakı sənətkar pislik düşünməyə vaxt tapa bilməz.

**Əhməd Yəsəvi.**

✦Günəşi gözdən qacırdım deyə ağlasan, ulduzları da görə bilməzsən.

**Taqore.**

✦Qədirbilməzlik ruzi verən əli yandırmaq kimi bir şeydir.

**M. T. Sidqi.**

✦Abrı, yaxşılığı şöhrətdən üstün tutan şəxsin yamanlığını danışanların tənəsindən qorxusu olmaz, bəlkə də yalan danışanlar onun paxıllığını çəkərlər.

**A. Bakıxanov.**

✦Samballı (dünya görmüş) bir adamla dostluq etmək istəyirsinizsə tənqid edin: Adi bir insanla dost olmaq istəyirsinizsə onu tərifləyin.

**Nelson.**

✦Hamı üçün həyat qiymətlidir, təmiz adam üçün namus həyatdan da qiymətlidir.

**V. Şekspir.**

✦Ziyankarlıq mənəvi yoxsulluğun mayasıdır.

**Məhəmməd peyğəmbər.**

✦İstedadlı kor istedadsız gözlüdən daha yaxşı görür.

**T. Fikrət.**

✦Bilik o vaxt bilikdir ki, o hafizə gücünə deyil, əql gücünə qazanılmışdır.

**Z. N. Tolstoy.**

✦Ağıllı olmaq isəyirsənsə, ağıllı sual verməyi, diqqətlə dinləməyi, sakit cavab verməyi və sözün qurtaranda susmağı öyrən.

**J. K. Zafator.**

✦Elə hərəkət et ki, bəşəriyyət bütövlükdə, fəza isə ayrılıqda sənin üçün yalnız vasitə deyil, həm də məqsəd olsun.

**İ. Kant.**

**Topladı: N. ATAKİŞİYEV.**

# ELANLAR

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Ərazi İdarəsi tərəfindən 11 may 2011-ci il tarixdə Qəbələ rayonu, Zarağan kənd sakini **Məmmədov Rafiq Qurban oğlunun** adına verilmiş fərdi yaşayış evi üçün Daşınmaz Əmlakın texniki pasportu (inventar №-si 406-8\328) reyestr nömrəsi 406013008527-10301, tərtib edilmə tarixi 11.05.2011, daşınmaz əmlakın Dövlət reyestrindan çıxarış (seriya MA № 0204129) qeydiyyat nömrəsi 1911001533, qeydiyyat tarixi 11.05.2011, yaşayış evinin planı,torpaq sahəsinin planı, yaşayış evlərinin texniki göstəriciləri, həyətyanı tikintilərin və qurğuların texniki göstəriciləri, mülkiyyət barədə ümumi məlumatlar haqqında sənədlər itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixli 10 saylı qərarla Tüntül kənd sakini **Səmədov Səməd Veysəl oğlunun** və ailə üzvlərinin adına verilmiş JN-168 G nömrəli (kodu 40616018) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Turizm və otelçilik üzrə peşə tədris mərkəzinin kollektivi iş yoldaşları **ƏMRAHOV RAKİF SƏFƏR OĞLUNUN** vəfatı ilə əlaqədar mərhumun əzizlərinə dərin hüznlə başsağlığı verir.

---

FHN-nin Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Vüsal Dəmirova,** qardaşı **TURAL DƏMİROVUN** vaxtsız və faciəli vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ rayon İncəsənət məktəbinin kollektivi iş yoldaşları **Aynur Sadıqovaya** və **Mətanət Ağamirzəyevaya,** əzizləri **RAKİF ƏMRAHOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının kollektivi, rayon təşkilatı gənclər birliyinin sədri **Namiq Ağayevə,** atası **TOFİQ TAHİR OĞLU AĞAYEVİN** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Rayon Mərkəzi xəstəxanasının kollektivi həkim-travmotoloq **CƏFƏROV AZƏR MÜRSƏL OĞLUNUN** vaxtsız vəfatı ilə əlaqədar ailə üzvlərinə dərin hüznlə başsağlığı verir və kədərləndiyini bildirir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.